Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi" mövzusunda konfrans keçirilib.

Azərbaycan Respublikasının Auditorlar Palatası, UNEC və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə keçirilən konfransın açılışından öncə iştirakçılar ümummilli lider Heydər Əliyevin büstü və UNEC-in şəhid olmuş tələbə və məzunlarının abidəsi önünə gül dəstələri düzərək, aziz xatirələrini ehtiramla yad ediblər.






# UNEC-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində maliyyə nəzarəti mövzusunda konfrans

Konfransın açılışında rektor, professor Ədalət Muradov Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsindəki müzəffər qələbəmizin 5-ci ildönümü münasibətilə 2025-ci ilin ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan olunduğunu diqqətə çatdırıb. Rektor bu tarixi hadisələrin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq, konfransın "Konstitusiya və Suverenlik İli"nə həsr olunduğunu bildirib və konfransın işinə uğurlar arzulayıb.

Sonra İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli vergi islahatlarının maliyyə nəzarətinin gücləndirilməsinə və özəl sektorda uçot sisteminin bərpasına təsirlərindən danışıb. Xidmət rəisi ölkədə vergi sisteminin şəffaflaşdırılması, kölgə iqtisadiyyatı ilə mübarizə, vergi sisteminin rəqəmsallaşdırılması istiqamətində görülmüş işlərdən söz açıb. Həyata keçirilmiş uğurlu islahatlar nəticəsində könüllü əməletmə indikatorunun ümumi daxilolmalar üzrə 2019-cu illə müqayisədə 2 dəfə artaraq, 93 faiz, bu göstəricinin qeyri-neft sektoru üzrə 91 faiz təşkil etdiyini bildirib. O.Nəzərli vergi sahəsində rəqəmsal texnologiyaların, süni intellekt və digər innovasiyaların tətbiqinin vergi xidmətinin effektivliyini artırdığını, maliyyə şəffaflığını və iqtisadi inkişafı daha da gücləndirdiyini diqqətə çatdırıb.

Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov gömrük sisteminin rəqəmsallaşdırılmasının ticarətin asanlaşdırılması və büdcə dayanıqlığının təmin edilməsindəki rolundan söz açıb. Sədr müavini gömrük xidmətində kəmiyyətlə yanaşı, keyfiyyət göstəricilərinin artdığını, şəffaflığın təmin olunduğunu diqqətə çatdırıb.

UNEC rektoru, professor Ədalət Muradov konfransda "Kadr hazırlığında yeni dövrün çağırışları" mövzusunda çıxış edərək, mövcud ali təhsil modelinin böhranı haqqında düşüncələrini paylaşıb: "Bugünkü ali təhsil modeli bu günün və sabahın tələblərinə cavab vermək iqtidarında deyil. Birinci sənaye inqilabı dövründə yaranmış universitetlər IV sənaye inqilabı üçün mütəxəssis hazırlığını həyata keçirə bilmir və keçirə də bilməz. Universitet ictimai təsisatdır və bu təsisatın qarşısında duran əsas vəzifə ictimai təfəkkürün və ictimai mədəniyyətin formalaşdırılmasıdır.

...Təhsil bu baxımdan yeni paradiqmaları ortaya qoymalıdır. Azərbaycan müasir dövrün tələblərinə cavab verən müasir universitet quruculuğunda öz təşəbbüslərini irəli sürə bilər. Yeni universitet quruculuğunda təhsilin rəqəmsallaşdırılması önə çıxacaq, hətta rəqəmsal təhsildən bir addım önə gedərək, ağıllı təhsil dediyimiz model artıq mövcuddur. Bu, bütövlükdə təhsilə tamamilə yeni bir baxışı tələb edir". Ədalət Muradov yeni universitet modelinin qurulması istiqamətində müasir çağırışları nəzərə alaraq, UNEC-də həyata keçirilən yenilikləri də iştirakçıların diqqətinə çatdırıb.

Konfransda Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədr müavini Azər Abbasov "Əmlakın leqallaşdırılması/TMM-ə qarşı mübarizə ölkənin maliyyə təhlükəsizliyinin mühüm amili kimi", Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə "Azərbaycan Respublikasında maliyyə nəzarətinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi məsələləri", Auditorlar Palatasının sədri professor Vahid Novruzov "Audit konstitusiya və suverenlik zəminində", ETN İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov "Süni intellektin maliyyə nəzarətində istifadə imkanları", UNEC-in Maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov "Maliyyə şəffaflığı, elm və praktikanın vəhdəti: müasir çağırışlar", Hesablama Palatasının şöbə müdiri Zaur Vəliyev "İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət auditinin rolu", Maliyyə Nazirliyi Aparatının Uçot siyasəti şöbəsinin müdiri Firuzə Abdullayeva "Dövlət maliyyə nəzarəti və audit", Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, UNEC-in dosenti Elşad Səmədzadə "Maliyyə nəzarəti konstitusiya hüquqlarının keşiyində" mövzularında çıxış ediblər.

**Elnarə MƏMMƏDOVA,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri.**

Respublika .- 2025.- 14 mart (№ 56).- S.10.